# Şahmat üzrə Bakı şəhər birincilikləri başa çatıb




Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən Respublika Şahmat Mərkəzində 2000-2001-ci il təvəllüdlü (16 yaşadək) və 2002-2003-cü il təvəllüdlü (14 yaşadək) oğlanlar və qızlar arasında şahmat üzrə Bakı şəhər birincilikləri keçirilib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Əbdülovdan aldığımız məlumata görə, yarışda 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbini, 2, 3, 19 nömrəli Uşaq-Gənclər İdman məktəblərini, Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbini, Həmkarlar İttifaqı Respublika Şahmat Dama Kulubunu və Respublika Şahmat Klubunu təmsil edən 71 idmançı (onlardan 21-i qızlardır) iştirak ediblər.

Yekun nəticələrə əsasən 14 yaşadək qızlar arasında I yeri Sədaqət Abbasova (RİOEUGŞM), II yeri Fatimə Məmmədova (RİOEUGŞM), III yeri Aydan Hüseynova (RİOEUGŞM), 14 yaşadək oğlanlar arasında I yeri Fərid Aslanov (RİOEUGŞM), II yeri Muhəmməd İsmayılov (2 №-li İOEUGŞİM), III yeri Mikayıl Fərhadov (RİOEUGŞM), 16 yaşadək qızlar arasında I yeri Aysu İsmayılova (2 №-li İOEUGŞİM), II yeri Ülkər Həsənzadə (RİOEUGŞM), III yeri Nərmin Quluzadə (RŞK), 16 yaşadək oğlanlar arasında I yeri Oğuz Abışlı (RİOEUGŞM), II yeri Emin Ələkbərov (HİRŞDK), III yeri Səid Rəfili (1 №-li İOEUGŞDİM) tutmuşlar. Bundan əlavə, 14 yaşadək qızlar arasında da bu ilin 30 mart tarixində keçiriləcək respublika final mərhələsinə vəsiqə qazanıblar.

Yarışın bağlanış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi, paytaxtın şahmat idman növü üzrə koordinator-kuratoru Salman Əbdülov və yarışların baş hakimi, beynəlxalq dərəcəli hakim Nurəli Məmmədzadə qalibləri təbrik edib, onlara gələcək yarışlarda müvəffəqiyyətlər arzulayıblar.

Yarışda I, II və III yerləri tutmuş idmançılar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplomlar və medallarla təltif olunublar.

**R.ZİYADOV**